**Mehriban Əhmədqızı**

# OYANIŞ

QANUN NƏŞRİYYATI

**Mehriban Əhmədqızı. Oyanış**
Bakı, Qanun Nəşriyyatı, 2026, 304 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 15.06.2026

Redaktor: Səidə Rəhimli
Korrektor: Səidə Rəhimli
Mətn dizaynı: Vüqar Nağıyev
Qapaq dizaynı: Kənan Eynullayev

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-058-2

© Qanun Nəşriyyatı, 2026
© Mehriban Əhmədqızı, 2026

Kitab müəllif tərəfindən redaktə və
korrektə edilərək nəşriyyata təqdim olunub.
Redaktə, korrektə və məzmun məsələlərinə
görə müəllif məsuliyyət daşıyır.

# GİRİŞ

Bu kitab qaranlıq görünən illüziyanın içində işığı xatırlayanlar üçündür. Ruhunun səssiz çağırışını eşidən, lakin hələ də hansı yoldan getməli olduğunu bilməyənlər üçündür. Bu sətirlər mənim deyil, Ruhumun yaddaşından süzülənlərdir. Mən sadəcə yazan, xatırlayan və xatırladanam.

Əgər bu kitabı oxuyursansa, artıq sən də oyanmağa başlamısan. İllüziyanın içində gizlədilən həqiqəti görməyə, öz nurunu xatırlamağa və ***əsl səni*** yaşamağa hazırsan.

Bu kitab sadəcə bir yazı toplusu deyil. Bu, bir xatırlatma, bir oyanış çağırışı, bir Ruh səyahətidir. Hər kəlməsi sətirləri aşan bir rezonans daşıyır. Bu rezonans tək bir yerə, bir zamana aid deyil, o, bizim ortaq yaddaşımızdandır.

Bu yazılar mənim qələmimdən axsa da, mən bu kitabı tək yazmamışam. Onu ***Ruh ailəmlə, yüksək Mənliyimlə*** birlikdə yazmışam. Hər biri mənə pıçıldayaraq içimdəki bilgini xatırlamağım üçün yanımda oldular. Bəzi sözlər, bəlkə də, sənə tanış gələcək. Çünki sən də o bilginin parçasısan.

Bu kitabı oxumağa başladığın andan etibarən sən də artıq *xatırlama yoluna* çıxmısan deməkdir. Sən bu sözlərə təsadüfən rast gəlmədin. Bu zamanda, bu anda, bu sətirləri oxumağın sənin ***Ruhunun planında*** vardı.

Bu, bir çağırışdır.

***"OYAN!" , çünki artıq zamanı gəldi.***

## RUHUN ÇAĞIRIŞI

Hər kəsin Ruhsal səyahətinin bir başlanğıcı vardır. Təəssüf ki, bu səyahətimizə könüllü olaraq başlamırıq. Çox zaman yaşadığımız kədərlər bizi bu yola itələyir.

Hamımızın həyatında yaşam çətinlikləri olub. Bunlar məni heç bir zaman əyməmisdi, ta ki, ölüm deyilən sillənin acısını dadana qədər.

8 il əvvəl gənc yaşda bacımı itirdim. Əsrin bəlası xəstəliklə iki il mübarizə aparsa da, sonunda tab gətirə bilmədi. Xəstəlik müddətində yaşananları bu xəstəliklə mübarizə edənlər və yaxınları bilirlər. Mən istər bacımın, istərsə də valideynlərimin bu kədərli hekayələrini bəzi səbəblərdən yazmıram. Düzdür, ölüm çox ağırdır, lakin bəzən bizi daha çox sarsıdan onun nə şəkildə baş verməsi və ölən sevdiklərimizin demək istədiyini dili ilə deyə bilməyib, “***axan göz yaşları ilə deməsidir”...***

Məni hər zaman hönkürtü ilə ağladan, deyəsən, daha çox bu ikincisi idi.

Bacım, hələ də yuxuda olan **“mən”**im oyanış yolumun ilk silləsi idi. Bu sillə məni silkələsə də? oyatmamışdı, həyatın içində axıb getməkdə davam edirdim.

Ta ki, 2020-ci ildə ölkəmizdə müharibə baslayana, “Covid-19” deyilən bəla dünyanı sarana və ən əsası da bunlarla eyni vaxtda 4 gün arayla valideynlərimi ard-arda itirənə qədər.

Çox dirəndim bu kədər dolu hekayələrimi yazım, yoxsa yazmayım:

**Yazmaq istəyirdim:** çünki mənim "oyanış"ımı, bu kitabın ortaya çıxmasını onların ölümü tətikləmişdi. Sanki daxilimdə bunu özümə borc bilirdim.

**Yazmaq istəmirdim:** çünki, həm kitabın ruhu başqa idi, həm oxucumu kədərləndirmək istəmirdim, həm də, deyəsən, keçmişə dönüb o anları sətir-sətir yazarkən, təkrar yaşamaqdan, yaramın qabığını qoparıb qanatmaqdan çəkinirdim.

Nəhayət, sonuncu gün cəsarətimi toplayıb, bütün günü yalnız yaşadıqlarımı yazdım. Lakin sadəcə yazmadım, illərlə yığılmış, dolmuş, amma yağmağa cəsarət edə bilməmiş bulud kimi boşaldım. Göz yaşlarım gün boyu heç dinmədi.

Amma səhəri gün bu yazdıqlarımı kitaba yerləşdirmək fikrindən daşındım. Qəribə bir şəkildə, əvvəlki kimi düşünmürdüm, özümü buna məcbur hiss etmirdim. Anlamışdım. Əslində mənim yazmalıyam məhkumiyyətim içimdə topladıqlarımı boşaltmaq, daşıdığım kədər yükündən azad olmaq üçün imiş.

Bu kədər mənim oyanışımın təməli oldu. Ən ağrı dolu halımı 6 ay yaşadım. Kitablara sarıldım. Adi kitabları deyil, ruhsal varlıqların kanal yolu ilə yazılan kitablarını oxuyurdum. Hansısa yazarın zehninin təxəyyülünü deyil, gerçək bilgiləri istəyirdim. Dəli kimi bilgi aclığım başlamısdı. Bir çox bilgilər məni qane etmirdi, fərziyyələri isə heç qəbul etmirdim. Sanki daxilimdə bildiyim, amma xatırlamadığım bilgilər var və mən onların təsdiqini axtarırdım.

Bir gün Kryonun kitablarından birində bir yazıya rastladım.

***“Ölüm bir ərmağandır”*** deyirdi. Sizlər dünyaya gəlməzdən əvvəl həyat planı qurursunuz. Həyatınızdakı insanlarla razılaşmalar imzalayırsınız. Məqsəd *ruhun dünyada dünya yuxusundan ayılması, dünyanın bir oyun meydanı, təcrübə məktəbi olduğunu dərk etməsidir.* Əslində hamınız həyat filminizdəki aktyor yoldaşlarısınız. Bəziləriniz arasındakı anlaşma bu cür olur: ***“Mən səndən əvvəl öləcəm və mənim ölümüm sənin oyanışın olacaq”***. Mənim ölümüm sənin oyanışın üçün ***“ƏRMAĞAN”*** olacaq. Əgər sən bəlli yas (kədər) dönəmindən sonra artıq axtarışa keçib oyanmağa başlayırsansa, ərmağanı verən ruh və ya ruhlar ***sevinir***, çünki sözləşmə baş tutmuşdur. Yox əgər sən depressiyaya düşüb daim yas saxlayırsansa, ərmağanı almamısan deməkdir və dünyasını dəyişən ruhlar ***üzülür.***

Çox yaxın tarixdir, lakin mənim üçün şüurumun dəyişməyə, suallar verməyə başladığım zamanlardı. O gündən bəri daha heç bir şey əvvəlki kimi olmadı. İçimdə cavabını çox axtardığım suallar toplandı.

Sevdiklərimi itirdikdən sonra ölümdən sonra nələrin olduğunu bilmək, Ruhların digər tərəfdə nə etdiklərini öyrənmək arzusu məni araşdırmağa sürüklədi.

Artıq insanın bu dünyaya rast gələ doğmadığını hiss edirdim. Allahın qurduğu sistemin bu qədər sadə, məqsədsiz olmadığını daxilən bilirdim.

**Elə isə mən kiməm? Nə üçün buradayam?**

Yaşam sadəcə dünyaya doğulub, böyüyüb, evlənib uşaq dünyaya gətirməkdən, yaşlandıqda estafeti onlara verib getməkdən ibarət ola bilməzdi. Bu insan şüurunun

primitiv baxışıdır. İlahi şüurun işləyişi əsla bu cür ola bilməzdi.

***"İşıq yaradan sızar", -*** deyib Mövlana. Mənim də içimdəki qaranlığa işığım bu yaralarımdan sızdı. Bunlar danışmaqla təsvir ediləcək duyğular deyil, yaşanaraq anlaşılan duyğulardır. Və bu, çox uzun bir yoldur. Artıq sorğulamağa başlayırsan: ***Bu qədər mi? Yəni yaşam bu qədər mi? Bəs sonra? Sonra? Sonra?...***

Məni uşaqlıqdan bu yana heç bir zaman dinlər və dini bilgilər maraqlandırmadı. Mənə görə Peyğəmbərlərimiz onlara tapınmaq (onları bütləşdirmək) üçün deyil, Allahın insanlara nümunə olaraq göndərdiyi nümayəndələrdir. Dinlər haqqında danışmayacam. Lakin Yaradan və onun sistemi haqqında idrak etdiklərimi sizlərə çatdırmağa niyyət etdim.

Əvvəla bilməyinizi istəyirəm ki, mən bir yazar deyiləm. Bu səbəbdən, kitabda poetik cümlələr olmayacaq, sadəcə idrak etdiklərimi acizanə öz dilimlə sizlərə çatdırmaq istədim. Bilgi həqiqətən də paylaşmadıqca insana yük olurmuş. Əgər bu bilgilər bir nəfərdə belə hansısa kilidin (kodun) açılmasına səbəb olacaqsa, mən məqsədimə nail olmuşam deməkdir. Artıq bilirəm ki, hər bilgi, hər kitab zamanı gələnlərə, bu cür bilgiləri qəbul etməyə hazır olanlara gəlirmiş. Bu kitab ***"oyanış"ının*** zamanı gələnlər üçün bir yol, bir cığır açma niyyəti ilə yazıldı. Sonrasını davam etdirmək, şüurunuzu genişləndirmək artıq sizə qalmış bir şeydir. Kitab insanlığın əsrlər boyu basdırılmış ***"Tanrısal" gücünü*** xatırlaması niyyəti ilə yazıldı.

# TANRI HARADADIR?

Sizlərdən, - ***“Tanrını nə cür təsəvvür edirsiniz?”* -** deyə soruşsam, bir çoxlarınız onu çox yüksəkliklərdə bir yerlərdə oturub davamlı bizi gözətləyən, sonunda da əməllərimizə görə kimini cənnətə, kimini də cəhənnəmə göndərən “**Böyük Varlıq”** kimi təsvir edərsiniz.

Təbii ki, Yaradan Böyükdür, Möhtəşəmdir. Lakin O Böyük Güc bizim hər birimizin onu ***öz düşüncələrimizdə şəkilləndirdiyimiz kimi deyil***. Tanrı insan ağlının heç bir zaman dərk edə bilməyəcəyi qüdrətə sahib olub, ***hər yerdə, hər gördüyümüz şeydə, hər şəkildə var olan, eyni zamanda da yox olan, şəkilsiz olan, əsla təsvir oluna bilməyən Böyük, Saf, Təmiz Enerjidir. Sevgi Enerjisidir***.

***Tanrı hər yerdədir.*** Gördüyün, görmədiyin ***hər şeydədir.*** Səndə, məndə, ağacda, daşda, axan çayda, günəşdə, ayda, uçan quşda, çiçəkdə, börtdə-böcəkdədir. Hər ***gördüyünün gözündən sənə baxan da odur*,** hər kəsin dilindən ***sənə eşitdiyin sözləri söyləyən*** də odur. Səndən ***başqalarına söylədiklərini deyən də odur.*** Yəni, hər şey ***“O”***dur.

Tanrı bir ***“Olan”*** *idi*, ***“Bütün”*** *idi*, ***bilinmək istədi***. Özünün nələrə qadir olduğunu bilsə də, bunu təcrübə etmək istədi. Bunun üçün özünü parçalara ayırdı. Kainatı və kainatda var olan hər şeyi – fizik və metafizik aləmləri yaratdı. ***Tanrı bilinmək üçün aləmi, bilmək üçün adəmi yaratdı.***

Gördüyünüz və görə bilmədiyiniz hər şeydə ondan bir parça vardır. Sizdə də ondan bir parça vardır ki, adına ***"Ruh"*** deyirsiniz.

Tanrı yaratmış olduğu bütün varlıqların içində yalnız bizə ***azad seçim*** (azad iradə) haqqı verdi. Bizim də onun bir parçası kimi nələrə qadir olduğumuzu təcrübə etməyimizi arzu etdi. Bir də ***bizim surətimizdə*** yaradıcı gücünü görmək istədi.

Bizim bu kainatda gördüyümüz və görə bilmədiyimiz bütün aləmlərdə hər nə varsa, ***Tanrının bir uzantısıdır. Var olan hər şey bir-birləri ilə və yaradıcı Mənbə*** *(Allah, Qaynaq)* ***ilə gözəgörünməz enerji bağları*** **(***tor-şəkilli enerji şəbəkəsi kimi***)** ***ilə bağlıdır***. İlahi sistemin insan ağlının heç bir zaman anlaya bilməyəcəyi ***nizamlı işləyişi*** vardır.

Bizlər nə qədər çətinliklərlə qarşılaşıb, həyatımızdan gileylənsək də, bizə görə bir çox şeylər yolunda getmirmiş kimi görünsə də, ***Yaradanın o böyük tablosunda hər şey yerli-yerindədir, hər şey lazım olduğu kimidir***.

Yaradan Kainatı yaratmış və qanunlarını da qoymuşdur. Bu qanunlar Kainatın nizamlı işləyişini təmin edən ***"Spirutiel" qanunlardır***. Bizlər bu qanunları bilsək də, bilməsək də, qanunlara riayət etsək də, etməsək də onlar tıkır-tıkır işləyir.

Hər bir oyunun qaydası vardır. Əgər qaydasına görə oynanmazsa, oyun çox qarışıq, xaotik olur. *Yaradan bütün aləmləri yaratmış və hər birinin içərisindəki varlıqlara və onların yaşamlarına uyğun qanunlarını da qoymuşdur*. Bu qanunlar ağılalmaz dərəcədə dəqiq və

incə bir mexanizmlə işləyir. Dünya oyunu da kainatın bu qanunlarına **- *"spirutiel qanunlara"*** tabedir**. *Spirutiel qanunlar kainatın ədalətli işləyişini təmin edən gözəgörünməz qanunlardır.*** Əgər həyatınızı bu qanunlara uyaraq yaşasanız, o zaman ***"İlahi axışda"*** olar, daha rahat, daha dinc yaşayarsınız. Amma həyatınızı bu qanunlardan bixəbər, rast gələ yaşayırsınızsa ki, demək olar, bütün insanlığın 90-95%-i bu şəkildə yaşayır, o zaman, axıntının tərsinə üzən biri kimi yaşamınızda çox çətinlik çəkərsiniz.

Kainat qanunlarından biri də **"Azad iradə"** qanunudur.

Tanrı bizləri yaradarkən yeganə varlıqlarıq ki, bizə həm *pərdənin bu tərəfində (dünya aləmində),* həm də *o tərəfində - işıq qatında (Ruhani aləmdə)* azad seçim haqqı vermişdir. Dünya oyununa gəlməzdən əvvəl Ruhani aləmdə həyat planınızı Rəhbərlərinizin köməyi ilə özünüz qurdunuz. Baş rolunu özünüz oynadığınız həyat filminizin ssenarisini də özünüz yazdınız. Doğum tarixini də, ölüm tarixini də, Ruhani Rəhbərlərinizin köməyi ilə özünüz seçdiniz. Hətta siz pərdənin bu tərəfinə (dünya aləminə) keçdiyinizdə bunların sizə unutdurulacağını bildiyiniz üçün xatırlamağınıza yardımçı olsun deyə önünüzə "**işarətlər"** də qoydunuz. Ailənizi seçdiniz, Ata - Ananızı, bacı – qardaşlarınızı, doğulacağınız ölkəni və hətta adınızı belə özünüz seçdiniz.

Lakin pərdənin bu tərəfinə (dünya aləminə) keçdikdən sonra bütün bunlar sizə unutduruldu. Dünyada olarkən Ruhani aləmdə qurduğunuz heç bir planı xatırlamazsınız.